# MƏXFİLİK SİYASƏTİ

Bu siyasət *“Air Transfer” MMC-nin xidmətlərindən (bundan sonra Air Transfer) istifadə zamanı* fərdi və digər fərdi məlumatlarının toplanılması və işlənilməsi qaydasını tənzimləyir.

**Air Transferdən** istifadə etməklə siz öz fərdi məlumatlarınızı bizə etibar edirsiniz.

Bu məxfilik siyasətində hansı məlumatları topladığımız, necə işlənildiyi və ötürüldüyü bildirilir. Məxfilik siyasətimizin əsas müddəalarını özündə cəmləşdirən bu sənədi, o cümlədən hansı məlumatları, nə vaxt topladığımız və necə istifadə etdiyimiz barədə məlumatları oxumağınızı tövsiyə edirik.

## 1. İSTİFADƏ OLUNAN ANLAYIŞLAR

**Air Transfer** –“Air Transfer” MMC-nin, VÖEN: 1601359571, yerləşdiyi ünvan: AZ1075, Azərbaycan Respublikası, Bakı şəhəri, Əhməd Rəcəbli küçəsi 3/18

**Sərnişin** - Sifarişçinin sifarişi əsasında sərnişin və baqaj daşıma üzrə saatlıq və/və ya transfer xidmətindən istifadə etmək imkanının verildiyi fiziki şəxs

**Sifariş —** nəqliyyat xidmətlərinin göstərilməsinə dair Sifarişçi tərəfindən yaradılan sorğu. **Sayt/veb-sayt–**www.airtransfer.azünvanıüzrəİnternetşəbəkəsindəqeydəalınmış informasiya mənbəyidir.

**Transfer —**Sərnişinin avtonəqliyyat vasitəsi ilə sifariş nöqtəsindən təyinat məntəqəsinə çatdırılmasıdır.

**Fərdi məlumatlar** - Air Transferdən istifadə edərək İstifadəçi tərəfindən birbaşa və ya

dolayısı yolla verilən məlumatlar;

**Cookie faylları —** sayt tərəfindən göndərilən və Sifarişçinin daxil olduğu kompüterdə, mobil telefonda və ya digər qurğuda saxlanılan və Sifarişçinin saytdakı hərəkətləri barədə məlumatların yadda saxlanılması üçün tədbiq edilən məlumatlar fraqmentləri.

Sayt və ya Air Transferin çağrı mərkəzinə zəng etməklə xidmətlərin sifariş edilməsi Sifarişçinin bu siyasətin şərtləri ilə, o cümlədən Air Transfer tərəfindən öz fərdi məlumatlarının işlənilməsinə, qüvvədə olan qanunvericiliyin müddəaları ilə bu cür razılıq tələb olunduqda, razı olması deməkdir.

## 1. FƏRDİ MƏLUMATLAR

1. Air Transfer Sərnişinin aşağıdakı fərdi məlumatlarını toplayır: Soyad, ad, atasının adı;

Telefon nömrəsi;

Reys məlumatları;

Olduğu yerin ünvanı;

Elektron poçt ünvanı.

1. Sərnişinin fərdi məlumatları Air Transfer tərəfindən aşağıdakı hallarda məhv edilir:
    1. Xidmətlərin göstərilməsinin bitməsi anından üç il keçdikdə;
    2. Sərnişin onun fərdi məlumatlarının istifadə edilməsinə dair razılığı geri çəkdikdə.
2. Sərnişinin fərdi məlumatlarının məhv olunması onları sonradan bərpa etmək imkanı olmadan həyata keçirilir.

1. Sərnişinlərin fərdi məlumatlarından yalnız xidmətlərin göstərilməsinə bilavasitə aidiyyatı olan şəxslər istifadə edə bilər. Digər hallarda Air Transfer Sifarişçinin fərdi məlumatlarını yaymır, və, qüvvədə olan qanunvericiliyə uyğun olaraq, səlahiyyətli dövlət orqanlarının sorğularına əsasən fərdi məlumatların təqdim edilməsi halları istisna olmaqla, Sifarişçinin ilkin razılığı olmadan, onları üçüncü şəxslərə vermir.
2. Air Transfer Sərnişinin fərdi məlumatlarının icazəsiz istifadə olunmasının qarşısını almaq məqsədilə tədbirlər görülməsini təmin edir.
3. Sərnişinin fərdi məlumatları elektron daşıyıcılarda saxlanılır və fərdi məlumatların avtomatlaşdırılmış işlənilmə sistemlərindən istifadə olunmaqla, işlənilir.
4. Air Transfer Sərnişinin fərdi məlumatlarından icazəsiz istifadə olunmasının qarşısını almaq üçün aşağıdakı tədbirlər görür:
    1. Sifarişçinin fərdi məlumatlarının təhlükəsizliyini təmin etmək üçün təşkilati və texniki tədbirlər görür;
    2. Fərdi məlumatlar daşıyıcılarının qorunmasını təmin edir;
    3. Fərdi məlumatların icazəsiz istifadə olunmasının qarşısını almaq üçün lazım olan informasiya müdafiəsi vasitələrindən istifadə edir;
    4. Fərdiməlumatlarıntəhlükəsizliyinintəminedilməsiüzrəgörüləntədbirlərin effektivliyini qiymətləndirir;
    5. Fərdi məlumatların icazəsiz istifadə olunması faktlarının aşkar olunmasını və tədbirlərin görülməsini təmin edir;
    6. Fərdi məlumatların təhlükəsizliyinin təmin edilməsi üzrə görülən tədbirlərə və fərdi məlumatların informasiya sistemlərinin müdafiə olunma səviyyəsinə nəzarət edir.

1. **SİFARİŞLƏR BARƏDƏ MƏLUMAT**
    1. Air Transfer Sərnişinin sifarişlərinin tarixçəsini, yəni sifarişin yerinə yetirilməsinin başlama vaxtını, avtomobilin verilmə yerinin ünvanını, aralıq və son marşrut ünvalarını, tədbiq edilən tarifi, ödəniş üsulunu və Sifariş yaradılarkən göstərilən digər məlumatları yadda saxlayır.
    2. Sifarişlər tarixi barədə məlumatın toplanılmasının məqsədi, əvvəlcə təqdim edilən məlumatlardan istifadə etməklə, sifariş parametrlərinin avtomatik doldurulması yolu ilə sifarişin yaradılma müddətini qısaltmağa imkan verir və göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasıdır.

1. **ÖDƏNİŞ MƏLUMATLARI**

Bank kartlarından istifadə etməklə nağdsız ödəniş beynəlxalq ödəniş sistemlərinin qaydalarına uyğun olaraq ödənişin məxfi və təhlükəsiz həyata keçirilməsi prinsiplərinə riayət olunmaqla həyata keçirilir. Sərnişin tərəfindən təqdim olunan məlumatların təhlükəsizliyi prosedurların ödəniş kartları sənayesi məlumatlarının təhlükəsizlik standartlarının tələblərinə uyğun olaraq təmin edilir (Payment Card Industry Data Security Standard).

1. **COOKİE FAYLLARI**
   1. Air Transfer aşağıda göstərilən tipli cookie fayllarından istifadə edə bilər:
      1. İstismar cookie-ləri. Onlar saytdan istifadə olunma barədə məlumatlar toplayır. Bu fayllar konkret Sifarişçinin şəxsi məlumatlarını almır. Bu cookie faylları ilə yığılmış bütün məlumatlar statistik xarakter daşıyır və anonimdir. Bu cookie-lərin istifadəsi məqsədləri:
         - Saytlardan istifadə statistikasının alınması;
         - Reklam kampaniyalarının səmərəliliyinin qiymətləndirilməsi.

Bu cookie faylları daimi və müvəqqəti olur.

1. Funksional cookie-lər. Onlar Sərnişin tərəfindən təqdim edilən məlumatın (məsələn, ad, Soyad, e-mail, telefon nömrəsi və.s) yadda saxlanılması üçün istifadə olunur. Bu cookie-lərin istifadəsi məqsədləri:
   - Əvvəl sərnişinə hansısa xidmətin göstərilib-göstərilməməsi barədə məlumatların yadda saxlanılması;
   - Sərnişin tərəfindən seçilmiş üstünlüklərin yadda saxlanılması yolu ilə saytla ümumilikdə qarşılıqlı fəaliyyətin keyfiyyətinin artırılması.
2. Reklam cookie-ləri. Onlar saytdakı reklam materialların idarə edilməsi, sərnişin tərəfindən reklam materiallarının baxılmalarının sayını məhdudlaşdırması və həmçinin reklam kampaniyalarının səmərəliliyinin qiymətləndirilməsi üçün tədbiq olunur.

1. Cookie fayllarını bloka salmaq və ya silmək, və həmçinin onların işinin məhdudlaşdırılmaq Sərnişin tərəfindən istifadə olunan brauzerin ayarlarında mümkündür.

1. **SİYASƏT YENİLƏMƏLƏRİ**

Bu Siyasətə vaxtaşırı dəyişikliklər edilə bilər. Bu səbəbdən hər hansı bir dəyişiklik üçün bu səhifəni mütəmadi olaraq nəzərdən keçirməyiniz məsləhət görülür. Dəyişikliklər veb-sayta yerləşdirildikdən dərhal sonra qüvvəyə minirlər. Sərnişinlər tərəfindən sifariş verilməsi mövcud Siyasətin qəbulu kimi hesab ediləcəkdir.